Ədəbiyyat QƏZETİ

3 aprel / 2021

# Arzular çin olanda



Yasif NƏSİRLİ

Tanınmış şair, pedaqogika üzrə fəlsəfə doktoru Əziz Musa 60-65 illik yubileylərini həm özünün, həm doğmalarının vaxtilə məskunlaşdığı Sabirabad və Biləsuvar rayonları ərazisində salınmış çadır şəhərciklərində qeyd etdi; özəlliklə, Birinci Qarabağ müharibəsinin könüllü döyüşçüsü kimi! Sabirabad rayon Mədəniyyət sarayında onun 60 illik yubileyində təbrik nitqi söyləyən Xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin sədri Anarın, Xalq şairi, AYB-nin birinci katibi Fikrət Qocanın və başqa tanınmış yazarların səmimi ürək sözləri bu fikirlərlə bitirdi ki, "gün o gün olsun əbədi, əzəli torpaqlarımızı erməni işğalından azad edək. Zəfər bayrağımızı işğal altında qalan bütün ərazilərimizdə, o cümlədən Əziz Musanın ata yurdu Cəbrayılda dalğalandıraq..."

Əzizin 65 illiyinin keçirildiyi unudulmaz tədbirdə də bütün çıxışlar bu inamlı, eyni zamanda da ağrı, nisgil dolu notlar üzərində köklənmişdi. Yenə də "Gün o gün olsun ki!" istəyi, ümid bağlantısı ön plandaydı. Əslində, onun yubiley günlərinin keçirilməsi Qarabağ itkilərimizi, bu yöndən olan ağrılarımızı dilə gətirmək, o doğma yerləri doyunca xatırlamaq, bu xatirələr boyunca, köçkün və qaçqın soydaşların bir-birindən hal-əhval tutmaq məqamıydı. Belə hallarda Əzizin yubiley günləri erməni faşizminə qarşı dirəniş, mücadilə əvlali-ruhiyyəsi yaşanırdı. Dilə gətirilən istəklər, oxunan şeirlər bu yöndən sərgilənirdi. Onun yubiley tədbirləri xatırlatma, yada salma, səfərbəretmə vasitəsi olaraq araya-ərsəyə gəlirdi.

İndi 2021-ci ilin aprel ayının ilk günləridi... Əziz Musa vətəndaş, şair, pedaqoq ömrünün 70-ci ilini qeyd edir. Özü də bu dəfə tam fərqli bir ovqatla... Yəni, onun 60-65 illik yubiley günlərində arzuolunanlar gerçəyə çevrilib. Mədəniyyət beşiyimiz Şuşa başda olmaqla işğal altında olan bütün Qarabağ torpaqlarımızda şərəfli zəfər bayrağımız dalğalanır. O cümlədən də Əzizin özünün də uzun illər boyu həsrətini çəkdiyi, doğulub boya-başa çatdığı doğma Cəbrayıl! O Cəbrayıl torpağı ki, Ə.Musa dünyaya göz açandan ürəyini verməşdi onun gözəlliyinə... Heyran-heyran baxmışdı dərəsinə, düzünə. Onun gözəllik tacı, onun bərəkət dolu hüsnünə, camalına "sevirəm" deməmişdi, sevgisini verməşdi.

Taleyə min şükür ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin müdrik siyasəti, dönməz iradəsi və qalib Ordumuzun hünəri sayəsində Qarabağ torpaqları işğaldan azad edildi. Millətin qüruru özünə qayıtdı. Uzun illərin torpaq həsrətinə son qoyuldu. Bütün qaçqın və məcburi köçlünlərimiz kimi, Əzizin də arzuları çin oldu, həmin günlərdə mən Əzizi ilk dəfə ürəkdən sevinən, deyib-gülən gördüm. Bu, həm də mənim öz yaşantılarım idi; eyni torpaqda doğulmuşuq. Cəbrayıl nisgili hər ikimizin ortaq ağrısı idi. Hələ 2013-cü ildə Əzizin mənə xitabən yazdığı "heç vaxt unutmursan kəndi-kəsəyi, çıxmır həyətbaca yuxularından" misralarında, əslində hər ikimizin doğma yurd nisgili dolğun ifadəsini tapıb. Mənə ünvanladığı "Sevirsən ürəkdən torpağı, daşı" müşahidəsində Əzizin özünün də Vətən sevdalı obrazı var. Çünki mən onu həmişə "Vətən, Vətən!" - deyə ötən bir ana-dil kimi görmüşəm. Bu səbəbdən aramızda xoş ünsiyyət bağları qurulub. Bütün ayrılıq illəri boyunca Əzizin yaşam tərzində, kövrəkliyində, dosta-tanışa və torpağa bağlılığında yeriyən, canlı, adama bir köynək yaxın olan Cəbrayıl doğmalığı hiss etmişəm. Ən müxtəlif məzmunlu şeir və poemalarından ilk növbədə o doğma bölgənin hənirini almışam. Ən müxtəlif mövzulu əsərlərindən Qarabağ həqiqətlərinin, Cəbrayıl sevgisinin keçməsini təbii qəbul etmişəm. Hələ düz 10 il bundan əvvəl Ə.Musanın dərin vətəndaşlıq duyğusu ilə qələmə aldığı "Mübariz dastanı"nı özümün sabaha, şanlı zəfər günümüzə bəslədiyim duyğularım, inamım kimi oxumuşam:

*Cəsarət igidə verər qol-qanad,*
*Təpərsiz ürəkdə coşan qan olmaz.*
*İgid meydan verməz düşmənə heç vaxt,*
*Ehtiyat edəndən qəhrəman olmaz.*

*Çalınsın yenə də "Cəngi" havası,*
*Düşmən al-qanına boyansın gərək.*
*Böyük qələbəyə yetişmək üçün,*
*Hamı bir cərgədə dayansın gərək.*

Bu, təkcə bir vətəndaşın, bir şairin, ən başlıcası, yurd-yuvasından didərgin düşmüş bir vətən sevdalısının yox, həm də bütöv bir xalqın, bütöv bir məmləkətin çağırışıydı. Yaşanan gerçəklik üçün özünü məsul bilən qələm adamının səfərbəredici missiyası beləydi. "Məndən ötdü, qardaşıma dəydi" prinsipindən uzaq olan vətən təəssübkeşi xilas yolunu belə tərənnüm edirdi. Həmin günlərdə Ə.Musanın haqlı qənaətiydi ki:

*Mübariz oluruq biz*
*Mübariz deyiləndə!*

İndi mənim üçün yazmaq çox ağırdı ki, Əziz Musa Qarabağ itkilərimizin yaşandığı o günlərdə köçkün-qaçqın şəhərciklərində, vaqon evciklərdə məskunlaşmış soydaşlarımızın həyatdan köç etmələrini çox kədərli, acı təəssüf hissilə qarşılayırdı. Doğma yurd-yuvalarından didərgin düşmüş bu insanların yurd həsrəti ilə həyatla vidalaşması, bir də doğma ocaqlarını, ata yurdlarını görə bilməməsi kədəri onu çox üzürdü. Bu sarıdan dərin nigarançılıq hissi keçirirdi. Dərin üzüntü içində yazırdı ki:

*Kim qarğadı Qarabağı? -*
*Yurdumuzu duman aldı.*
*Doğma yurda qayıtmağa*
*Qardaş, gör kimimiz qaldı?!*

Bu misralar illər uzunu verdiyimiz itkilərin iç ağrısını bütün yönləri ilə ifadə edir. Yəni, inam ölmür, ümid bütün zamanlar üçün diri qalır, şair-vətəndaş işğal altında qalan yurd yerlərinin gec-tez azad ediləcəyinə şəkk gətirmir. Ancaq insan ömrü əbədi deyil, qara çıraq kimi yanır, yanır və tükənir. Şam kimi sönür... Doğma yurd yerlərinə dönəsi əzizlərdən, o yerlərə haqqı çatanlardan kimsə qalmır... Əziz Musa artıq geridə qalmış o işğal günlərinin bu qorxusunu yaşayırdı həmin dönəmlərdə. "Vətən də qürbət olur" qərib yolçuluğunda düşüncəsi ilə yurdsuzluq acısı yaşayırdı, eyni zamanda da "Şəhidlər yatan torpaq ocağa, pirə dönər" təsəllisi tapırdı.

Bir söz adamı, şair kimi "Gəl məni qorxuzma qarla, yağışla, günahdır, hər sözü qınağa çəkmə" səmimiyyəti, "Səni gözləyirəm hər axşam-səhər, çıxan günəş kimi, doğan Ay kimi" sədaqətinin yolçusudu. "Sən küsəndə özümdən də küsürəm" münasibətilə Hüseyn Arif duyğusallığını yaşayır ki, "Mən də dərsdən qaçıram, sən dərsə gəlməyəndə..." Bütün bu səmimi duyğular ilk növbədən onun sadə, iddiasız təbiətindən irəli gəlir. Çünki bir insan kimi, Əziz Musa ətrafına, onu əhatə edən mühitə hüzur yaşada bilir. Ünsiyyətcil və iddiasızdır. Dostluqda sədaqətli, sözünü tuta bilənlərdəndi. Bu müsbət keyfiyyətlər ilk növbədə onun qələmə aldığı şeirlərin ovqatına sirayət edir.

Əziz Musa 1951-ci ildə Cəbrayıl rayonunun Çərəkən kəndində anadan olub. 1972-ci ildə Gəncə Dövlət Pedaqoji İnstitutunu fərqlənmə diplomu ilə bitirib. Orta məktəbdə müəllim, məktəb direktoru kimi çalışıb. Pedaqogika üzrə fəlsəfə dokorudur. Həcc ziyarətində olub. 30-da çox şeir kitabının müəllifi, "İlham çeşməsi" qəzetinin təsisçisi və baş redaktorudu.

Ömün yetmiş ilini arxada qoyan Əziz Musa yenə də gənclik həvəsilə yazıb-yara-



dır. Ata-baba yurdunun erməni işğalından azad edilməsi onun yazıb-yaratmaq həvəsinin üstünə həvəs, ömrünün üstünə ömür gətirib. Sifətinə gülüş, gözlərinə təbəssüm qayıdıb. Onun bu xoş əhvali-ruhiyyəsi yadıma dünyaşöhrətli yazıçı B.Şounun dediklərini salır: "Nə qədər çox işləyirəmsə, bir o qədər çox yaşayacağam. Mən həyatı həyat xatirinə sevirəm. Həyat mənim üçün kiçik bir kösöv deyil, gur yanan məşəldir ki, müəyyən müddət saxlamaq üçün mənə veriblər və mən istəyirəm ki, onu gələcək nəsillərə çatdırmaq üçün o, daha da gur yansın..."

Səmimi sözümdü ki, mənim tanıdığıç Əziz Musa da həyatı həyat kimi sevməyi və yaşamağı bacaranlardandı.

Ömrün yetmişini geridə qoyan gənc dostum Əziz Musaya can sağlığı, yeni yaradıcılıq uğurları arzulayıram. Arzuların çin olduğu yerdəyik; müstəqil Azərbaycanımızın yüksəlişinə şahidlik edirik, Qarabağ torpaqlarını, eləcə də doğma Cəbrayılımızı azad görürük... Böyük xoşbəxtlikdir. Xoşbəxtlik içində yaşa, qardaşım!..